DÜNYA XƏBƏRLƏRİ

# Türkiyədə məktəb yaxınlığında atəş açılıb, 8 şagird yaralanıb

Sentyabr 22, 2026




İnsident Manisa vilayətinin Turqutlu şəhərində baş verib

Sentyabrın 22-də Türkiyənin qərbindəki Manisa vilayətində bir şagird oxuduğu məktəbin qarşısında atəş açaraq azı səkkiz şagirdi yaralayıb. Bu barədə NTV telekanalı məlumat yayıb.

Məlumata görə, yaralılardan ikisinin vəziyyəti ağırdır. Yerli valilik hücum edən şəxsin saxlanıldığını bildirib.

İnternetdə yayılan foto və videolarda əli tüfəngli bir şəxsin məktəbin yaxınlığındakı küçə ilə getdiyi, daha sonra isə həmin küçədən geriyə qaçdığı görünür.

Hücumun motivi hələlik bəlli deyil.

Apreldə Türkiyə məktəblərində iki silahlı atışma insan itkisi ilə nəticələnib. Bundan sonra rəsmilər 2026-2027-ci tədris ili üçün yeni təhlükəsizlik tədbirləri tətbiq ediblər. Silahlara nəzarətin də sərtləşdirildiyi bildirilib.

Əvvəllər Türkiyədə bu cür hücumlar geniş yayılmamışdı.

Vitse-prezident **Cövdət Yılmaz** bildirib ki, daxili işlər naziri Mustafa Çiftçi və təhsil naziri Yusuf Tekin araşdırma aparmaq üçün Manisaya yollanıblar.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur